*Azərbaycan Milli Elmlər Akademiyasi M. Füzuli adına Əlyazmalar Institutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 4, 2024*
*Səh. 395-402*
https://doi.org/10.62837/2024.4.395

**AMANOVA HEYRAN ƏFLATUN QIZI**
***Azərbaycan Dillər Universiteti***
***heyranamanova@gmail.com***

# ELÇİN HÜSEYNBƏYLİNİN QARABAĞ HEKAYƏLƏRİNDƏ PSİXOLOGİZM

Psixologizm çoxcəhətli və fərqli məna çalarlarına malik bir termindir. Ədəbiyyatşünaslıqda psixologizm insan şüurunun bədii mənimsənilməsi və təsvir olunması üçün bir vasitə şəklində, və ya qəhrəmanın daxili dünyasının: düşüncə, istək, emosiyalarının bədii ədəbiyyat vasitəsilə təsviri kimi xarakterizə edilir. Bu termin daha çox sovet və postsovet düşüncəsində aktuallıq qazanmışdır. Qərb ədəbiyyatında isə bu termin zehni hadisə və davranışların məcmusu olan psixoloji təhlil (psixoanaliz) məfhumu ilə qarşılığını tapır. Psixoanaliz XVIII əsrin sonu XIX əsrin əvvəllərində Qərbi Avropada epistolyar janrın populyarlıq qazandığı bir dövrdə yaranır, XX əsrin əvvəllərindən etibarən Ziqmund Freyd və Karl Qustav Yunqun axtarışlarında şəxsiyyətin psixologiyasının dərin qatları təhlil obyektinə çevrilir. Rus ədəbiyyatında isə psixologizm L.Tolstoyun, F.Dostoyevskinin yaradıcılığında zirvəyə qalxır. Zaman irəlilədikcə psixologizmin ifadə tərzində dəyişiklik özünü göstərməyə başlayır, bu dəyişiklik daha çox XX əsr Qərb-Avropa ədəbiyyatı üçün xarakterik olan şüur axının formalaşdırmasında təcəssüm tapır.

Müstəqillik dövründə psixologizm anlayışı yeni keyfiyyətlərlə zənginlik qazanır. Yaradıcılığında obrazların psixoloji vəziyyətini real bədii boyalarla, inandırıcı detallarla əks etdirən sənətkarlardan biri də “Qaraçuxa” ədəbi təxəllüsü ilə yazan Elçin Hüseynbəylidir.

Elçin Hüseynbəyli Qarabağla bağlı yazdığı nəsr əsərlərini “Ağ.Qara” (2013) və “Gözünə gün düşür...” (2018) kitablarında toplamışdır. Yazıçı 1989-cu ildə qələmə aldığı “Küləkli çöl” adlı ilk hekayəsi vasitəsilə təxəyyülündə canlandırdığı yaşlı bir kişinin timsalında ədalətsiz münaqişədən nəsibini almış, öz doğma yurdundan deportasiya edilmiş, doğmalarının qətliamını öz gözləri ilə görmüş insanların ümumiləşdirilmiş obrazını yaratmışdır. Hadisələr küləklə müşayiət olunan cansıxıcı, kimsəsiz bir çöldə birinci şəxsin dili ilə nəql olunur. Yaşlı kişinin psixoloji vəziyyəti: daxili gərginliyi, ümidlə birgə ümidsizliyi, qəzəbi, nifrəti, gələcəyə inamı ilə havanın ürək darıxdıran mənzərəsi arasında bir paralellik mövcuddur. Sanki insan özü təbiətlə bütünləşərək onun bir parçasına çevrilir. Yaşlı kişinin içindəki nifrət küləyin qulaqbatıran səsində, gələcəyə ümid isə günəşin gözqamaşdıran parlaqlığında təzahür edir. Hekayənin sonunda qocanın gələcəklə bağlı qətiyyətli fikirləri bugünümüzün real mənzərəsinin göstəricisidir. “Elə bilirsən hər şey belə qalacaq. O torpağın yiyələri gələcək! Gələcək o oğullar! Görərlər!...” [2, s.140]

Elçin Hüseynbəylinin hekayələrinin dili olduqca sadə, anlaşıqlı və lakonikdir. Hekayələrdə aparıcı mövzu isə vətən həsrəti çəkmiş insanların daxili aləmindəki boşluqlar, gördükləri dəhşətli mənzərələrdən sarsılmış insanların taleyidir. Müəllif

demək olar ki, hekayələrinin əksəriyyətində diqqəti müharibədən öncə və müharibənin ilk vaxtlarında özünü göstərən qüsurlara, nizamsızlığa, dərkolunmazlığa cəlb edir. Qısa məzmuna malik, lakin dərin mətləblərə yer verilən "Ağsaqqal" hekayəsində də təəssüf doğuran məqamlarla qarşılaşırıq. Hadisələrin gedişatından aydın olur ki, müharibə hələ başlamayıb lakin hər iki tərəf arasında gərgin münasibətlər zahiri əlamətlərdə artıq kəskinləşib. Yazıçı hekayədə müharibə və münaqişə şəraitində silahın həm qələbə və güvən hissi aşılayan, həm də məğlubiyyət və qorxunu yaradan bir vasitə olduğunun önəmini vurğulayırdı. Birinci Qarabağ müharibəsində əsgərlərin, eləcə də, öz torpaqlarının müdafiəsinə qalxan yerli sakinlərin ən böyük ehtiyacının silah olmasına diqqət çəkir, hərbi sursatların yetərsizliyini məğlubiyyətin başlıca səbəblərindən biri kimi qiymətləndirirdi.

"Atəş səsləri qulağımda" hekayəsi ilə yazıçı bir ailənin, bir kəndin aqibətini verməklə Qarabağdakı ümumi mənzərənin təsvirini yarada bilir. Əsərdə vətən torpağının müdafiəsinə qalxan əliyalın oğullarımızın şücaəti nə qədər yüksək qiymətləndirilisə, xalqdan silahları toplayaraq onların ölüm fərmanını imzalayan hökumət adamları da ən az ermənilər qədər nifrətlə qarşılanırdı. Hekayədə ən diqqət çəkən obraz doqquz yaşlı Umuddur. Umud hekayə boyu yaşıdlarında yaddan çıxıb qalan topunun fikrini çəkir, lakin qarşıda onları gözləyən müsibətlərdən xəbərsiz məqam tapdıqca topunu xatırladır və onu geri almaq üçün cəhdlər edirdi. Yazıçı uşaq psixologiyasındakı özünəməxsus olan əşyanın geri qaytarma istəyi ilə düşmənlərin öldürərək, talan edərək sahib olmaq hərisliyi arasındakı ziddiyəti ortaya qoyurdu. Umud bilmirdi ki, əldə etmək istədiyi o top onun uşaqlıq yaddaşında iz buraxacaq, ağrılı bir xatirəyə çevriləcəkdi. Hekayədə Umudun atası Fazil vətəni, torpaqlarını müdafiə edərkən şəhid düşür, anası Qaratel isə Araz çayının sularına qərq olaraq əbədiyyətə qovuşur. Diqqət çəkən məqamlardan biri Araz çayının anlam qazandığı məna yüküdür. Poeziyada Azərbaycanı şimal və cənub hissələrə ayıraraq ayrılıq rəmzinə çevrilən Araz çayı Elçin Hüseynbəylinin hekayələrində daha çox son ümid, xilaskar kimi rəmzləşdirilirdi.

Əgər "Atəş səsləri qulağımda" hekayəsində insanlar Arazın o tayına- Cənubi Azərbaycan torpaqlarına keçməyi arzulayırdılarsa, "Qocanın axdığı gün" hekayəsində isə bütün yaxınlarını Qarabağda itirmiş, Araz çayını keçib Cənubi Azərbaycana gələn kimsəsiz qalmış Qoca obrazı hər daim Arazın o tərəfinə- Qarabağ torpaqlarına, doğma vətəninə yenidən qovuşmaq həsrətilə yaşayır. Qocanın keçirdiyi psixoloji sarsıntılar o qədər dərindir ki, onun yaşamaq üçün yeganə səbəbi var: bir zamanlar böyük əziyyətlə saldığı meyvə bağından yeganə qalan armud ağacının çiçəklənməsini görmək. Çünki o ağacda ermənilər tərəfindən öldürülmüş nəvəsinin barmaq izləri var... Qoca daxilindəki mənəvi böhranla özünəməxsus şəkildə mübarizə aparır, son ümidin cücərməsi üçün özünü qurban verir. Armud ağacının qurumasından qorxaraq Arazı keçib onu sulamaq istəyərkən çayın müqavimətini qıra bilmir və ölür. Yazıçı qocanın mənəvi ölümünü cismani ölümündən daha əvvəl baş verdiyini hekayə boyu təsvir edirdi. Sonda armud ağacının quruması ailəyə məxsus bütün xatirələrin silinməsi, ümidlərin məhv olmasının təzahürü idi. Gələcəklə bağlı bu cür pessimist hisslər yazıçının "Qaracanın

Azərbaycan Milli Elmlər Akademiyasi M. Füzuli adına Əlyazmalar Institutu, ISSN 2224-9257
Filologiya məsələləri № 4, 2024
Səh. 395-402
qara başı" hekayəsinin süjet xəttilə müəyyən mənada birləşir. Hekayənin əvvəlində yazıçının yüksək amalları ilə sonda gəldiyi nəticə arasında bir paradoks özünü göstərir. Bu paradoksu hekayəni özündə bir qədər nikbin əhval-ruhiyyə ehtiva edən "Kədərin üzü həmişə qara olmur!" başlığı təqdim edilməsi ilə də izah etmək olar. Əsərin əvvəlində yazıçının azadlıq idealları təkcə Qarabağla məhdudlaşmır, o, nə zamansa Təbrizdə, uzaq Uyğur vilayətində də üçrəngli bayrağımızın sancılacağı ümidini dilə gətirir. Hekayədə Şahnisə nənə tərəfindən Qaraca adı verilən "qoç" ümid, arzu, istək simvoluna çevrilir. Biləsuvarda qaçqın həyatı yaşayan nənə vətən həsrəti, yurd nisgilinə son qoymaq üçün torpaqlarına qovuşacağı gün Maral dağın (Maral təpə idi əslində) ətəyində Qaracanı qurban kəsdirəcəyinə əhd edir və bu qurbanlıq Şahnisə nənənin psixoloji sarsıntılarına, çarəsiz hallarına, seyrəkləşən ümidlərinə bir çıraq olacaqdı. Yazıçı gündəlik məişət qayğıları ilə siyasi hadisələri paralel şəkildə verir, Lissabon sammitindəki Qarabağla bağlı qətnamələri, bununla bağlı yaranan söz-söhbətləri vətənin azadlığa qovuşmasını gecikdirən amillər kimi qiymətləndirirdi. Dolayısı ilə həm nənənin ümidləri tükənir, həm də Qaracanın ömrünə biçilmiş günlər azalırdı. Sonda Qaracanın ölümündən sonra xəstələnib vəfat edən nənə dünyadan nakam gedir və bu hekayənin bədii ruhunda bədbin notlarla iz buraxır.

Elçin Hüseynbəylinin Qarabağ hekayələrində obrazların xarakerində mənfi və ya müsbət çalarlar yoxdur, hətta düşmənə belə subyektiv yanaşma özünü göstərmir. Bu yazıçının ədəbiyyata humanist mövqeyinin göstəricisidir. Biz bunu "Gözünə gün düşür" hekayəsinin mövzusunda daha aydın görürük. Tənqidçi Vaqif Yusifli "Elçin Hüseynbəylinin Qarabağ hekayələri" məqaləsində bu hekayə ilə bağlı düşüncələrini belə qeyd edir: "Bu hekayədə hətta bir romanın məzmununa sığa biləcək hadisələrlə qarşılaşırıq, təsvir olunan obraz isə, doğrudan da, İnsan və Müharibə problemini özündə dolğunluqla əks etdirir" [5]https://manera.az/index.php?newsid=9103 - sel=.

Hekayənin adında ehtiva edən gün, işıq parlaq gələcəyə, işğal altında olan torpaqlarımızın azadlığa qovuşacağı inamının, həkimin özü ilə bərabər əkməyə gətirdiyi fidan ağacı isə gələcək nəsillərin bu torpaqlarda daha dərin kök salacağı düşüncəsinin bədii əksi idi. Hekayə boyu erməni əsgərlərinin şəxsi mənfəətləri naminə həkimə "yardım" etmələrinin şahidi oluruq. Bu hekayədə də yazıçının onlarla bağlı şəxsi mövqeyini, pafoslu tənqid və ya aqressiv şüarçılıq meyillərini görmürük.

Elçin Hüseynbəylinin Qarabağla bağlı yazılmış psixoloji məna tutumuna malik hekayələrindən biri də "Çıxılmazlıq" adlanır. Hekayədə çıxılmazlıq duyğusundan qurtulmağa çalışan professor sona qədər bu hissdən azad ola bilmir, onun sonda verdiyi qərar belə oxucuda təzadlı fikirlər formalaşdırır, bir növ oxucunu "sən olsaydın necə qərar verərdin?" sualı ətrafında düşünməyə sövq edir.

Yazıçının hekayələri arasında orta məktəbin 5-ci sinif şagirdləri üçün nəzərdə tutulmuş "Firuzə qaşlı xəncər" xüsusi önəm daşıyır. Digər hekayələrdən fərqli olaraq burada düşmənin amansız və qəddar davranışları real cizgilərlə verilərək oxucuda qəzəb, qisas hissini gücləndirir.

Elçin Hüseynbəyli hekayədə tarixdə iz salmış, düşmənə təslim olmayan, mübariz qadınlarımızın xüsusiyyətlərini özündə daşıyan Zeynəb obrazını

yaratmışdır. Zeynəb körpəsi Güləri sinəsinə sıxaraq yaşamaq uğrunda mübarizə aparır, qurtuluş yolları axtararkən bir qrup ermənilərin qandonduran hərəkətlərilə qarşılaşır. Yazıçı obrazın daxili təlatümlərini, keçirdiyi hiss-həyəcanları haqlı sayaraq, ermənilərin öz aralarında türklərə duyduqları nifrətin dərin köklərinə diqqət çəkir.

" Əsirləri soyundurdular.

-Komandir güllələyək?

-Yox gülləni onlara sərf etməyin , lazımımız olacaq.

-Bəlkə yandıraq?

Axmaq!-deyə saqqallı onun üstünə çımxırdı. Benzin heyif deyil?! Üstlərinə su tökün, qoy donsunlar, sonra atın çalaya, üstlərini örtün. Müsəlmanlar elə bilsinlər ki, biz öldürməmişik, özləri itkin düşüblər..." [2, s.126]

Bildiyimiz kimi, bədii obrazın psixoloji vəziyyətini göstərən faktorlardan biri də daxili monoloq və dialoqdur. Tənqidçi Rəhim Əliyev dialoqla bağlı qənaətini belə qeyd edir: " Müəllif öz sözünü və fikrini iki səs şəklində fərdiləşdirməklə dünyanın mürəkkəbliyini görmək üçün ikinci bir pəncərə, baxım nöqtəsi yaratmış olur. Bu mənada dialoq həm də dünyanın zənginliyini, mürəkkəbliyini, çoxüzlüyünü izah etmək üçün müəllifin istifadə etdiyi ən unikal obrazlılıq formalarından biridir" [1, s.224].

Hekayədə ermənilərin mənfur xisləti təkcə onların arzu və düşüncələrində deyil, bu düşüncələri reallaşdıran davranışlarında da təzahür olunur. Bu davranışlar vasitəsilə də düşmən psixologiyasının mahiyyəti barədə təsəvvür yaratmaq olar. Müəllif Zeynəbin erməni əsgərilə çarpışdığında nənəsinin bağışladığı xəncərlə onun boğazını kəsərkən yaşadığı psixoloji vəziyyəti həm az əvvəl gördüyü qandonduran mənzərə (bir qrup insanların soyundurulub üzərlərinə su tökərək basdırılması) ilə, həm də Gülərin taleyini düşünməsilə əlaqələndirir. Analıq instinktiylə davranmaq məcburiyyətində qalan Zeynəb, övladı oyanıb özünü ələ verməsin deyə azğın erməninin təcavüzkar hərəkətlərinə susmalı olur, lakin düşdüyü çətin situasiyada özünü müdafiə edərək qurbana çevrilmir.

Yazıçının "Ölən gözlərdə də ümid var" hekayəsində təsvir olunan ana obrazı isə Zeynəbdən fərqli olaraq düşdüyü situasiyada özünü fəda etmək məcburiyyətində qalır. Qarabağ qazisinin dilindən nəql olunan hekayə müəllif təhkiyəsilə qələmə alınır. Lakin ermənilərin iç üzü, mənfur əməlləri erməni qazisinin dili ilə təqdim olunur. Bu məqamda baş verənlər üçüncü şəxsin təhkiyəsində öz əksini tapır. Akad. Muxtar İmanov təhkiyənin bu növülə bağlı fikirlərini belə ümumiləşdirir: "Üçüncü şəxsə aid təhkiyədə vəziyyət bir qədər çətinləşir: obyektivliyə nail olmaq üçün hekayəçi öz münasibətini gizli saxlamağa, təsvir olunanlara birbaşa müdaxilə etməməyə, xarakter haqqında nəticə çıxarmağı, obraza qiymət verməyi oxucunun öhdəsinə buraxmağa çalışır" [3, s. 58].

Müharibə ilə bağlı detalları yazıçının uzun hekayə kimi təqdin etdiyi "Əsirlər" və "Qoca" adlandırdığı iki hissəli "Qurdun şərqisi" povestində görürük. Hadisələr Qarabağ müharibəsinin başlanğıc dövrünün xronikası ilə səsləşərək iki qəhrəmanın- yaşlı Xəlil, cavan Yavuzun timsalında canlandırılır. Müəllif əsas diqqəti

*Azərbaycan Milli Elmlər Akademiyasi M. Füzuli adına Əlyazmalar Institutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 4, 2024*
*Səh. 395-402*

bu iki obrazın daxili aləmində, davranışlarında biruzə verən müharibənin dərkolunmazlığına cəlb edir. Dərkolunmazlıq düşüncələrdən savayı əsgərlərin hərbi hazırlığında da özünü göstərir. Bu bir daha onu sübut edir ki, dövlətin qüdrəti yeni hərbi sursatlarla təchiz olunmuş güclü, vətənpərvər ordusu ilə ölçülür. Bu baxımdan Elçin Hüseynbəylinin povestində həm obrazların psixoloji aləmi, həm də əsgərlərin kor-koranə, nizamsız davranışı bədii lövhələrlə əks olunur. Qəhrəmanların tapdıqları tank Xəlildə bəsit bir arzunu gerçəkləşdirmək istəyi oyadır: kənddə tanka minib qürrələnəcək, traktor əvəzi yeri şumlamaq üçün istifadə edəcəkdi. Bir traktorçu təfəkkürü ilə düşünüb gələcəklə bağlı planlar quran Xəlil baş verə biləcək ehtimalları heç təsəvvürünə belə gətirmirdi. Gənc Yavuzun hissləri daha məsum, arzuları daha parlaqdır. Yazıçı hər iki obrazın daxili hisslərinə tərcüman olaraq döyüşə qoşulan, lakin döyüşün, müharibənin mahiyyətini anlamayan insanların portretini yaratmış olur. Xəlil "kirvə Armik"lə qarşılaşdığı andan sona kimi ona etimad göstərir, köhnə tanışından bir pislik gəlməyəcəyinə əminliyini bildirir. Armik isə hər fürsətdə öz mənfur xislətini gizlətməyə çalışan, məqamı gələndə isə bundan faydalanan ermənilərin ümumiləşdirilmiş obrazıdır. Birinci hissə əsirlərin ermənilər tərəfindən vurulmasıyla sonlanır.

İkinci hissədə isə Xəlilin əslində yaralanıb sağ qaldığını görürük. Xəlil artıq müharibənin acı həqiqətlərini, qurduğu xəyalların puçluğunu dərk etmiş, ümidsizlik içində ondan uzaq gəzən ölümə həsəd aparırdısa da məğlubiyyətin reallığı ilə barışa bilmirdi. Sonda bir neçə erməni əsgərini zəhərləyib öldürərək özü də Arnikin oğlu tərəfindən öldürülür. Elçin Hüseynbəyli ideoloji hesab etdiyi bu əsərin yazılacaq olan üçüncü hissəsi ilə bağlı düşüncələrini belə ümumiləşdirir: "Üçüncü fəsildə qalibiyyət olmalıdır! Xəlilin oğlu Xaqan Arnikin oğluna qalib gəlməlidir. Lakin hələlik real ilk iki fəsildir" [2, s.194].

Elçin Hüseynbəylinin Qarabağ hekayələri arasında yazılma tarixi baxımından ən son hekayə "Sevgiylə döyüşmək" adlanır. Hekayənin mövzusu qədər qəhrəmanı da olduqca təsirli hisslər oyadır. Təsirli olan isə qəhrəmanın yaşının olduqca az, müharibə psixologiyasından uzaq olmasıyla əlaqəli idi. Elçin Hüseynbəyli Sənanın ölümüylə müharibənin amansız mövcudluğuna diqqət çəkir, insanlığa humanist münasibət onun bədii qayəsinə çevrilirdi.

"Kəndə gün çıxanda qayıdacağıq" hekayəsi müəllifin gələcəklə bağlı sonsuz inamının, parlaq ümidinin göstəricisidir. Yazıçı maraqlı sujet xətti yaradaraq hekayə boyu oğlu Orxanla söhbət edir, onu öz uşaqlığında gəzdiyi torpaqlara aparır və onda xəyali təsəvvürlər yaradırdı. Qəhrəmanın psixologizmi duyğu və düşüncələrində canlandırdığı məkanların və bu məkanlardakı insanların təsvirində özünü göstərir. O, bir zamanlar getdiyi, gördüyü, tanıdığı təsvirləri verərkən sanki xəyalla reallıq, keçmişlə bu gün arasında əlaqə, bağlılıq yaradır. Qəhrəmanın təsvir etdiyi məkan və obrazların rəngarəngliyi onun psixoloji vəziyyətinin dərinliyi ilə şərtlənir. Hekayənin adında ehtiva olunan gün (günəş) bu gün qurulan xəyalların gələcəkdə reallaşacağına bir işarədir. Yazıçının satirik üslubda, ironiyalarla zəngin "Şimallı gəlin" hekayəsi "Kədərin üzü həmişə qara olmur!" başlığı altında birləşdirilmiş hekayələrindəndir.

Azərbaycan Milli Elmlər Akademiyasi M. Füzuli adına Əlyazmalar Institutu, ISSN 2224-9257
Filologiya məsələləri № 4, 2024
Səh. 395-402

Hekayədə ironiyaya səbəb olacaq mətləblər çoxdur. Hadisələr birinci şəxsin dililə nəql olunur və bu hadisələrə qəhrəmanının öz gözü ilə baxıb qiymətləndirmək imkanı verir. Qəhrəmanın şimala-Rusiyaya işgüzar səfərinin təqdimatı isə birmənalı görsənmir, bu bir növ müəllifin Rusiyaya iş tapmaq adı ilə gedən insanların orada rus qadınları ilə ailə qurmasına ironik yanaşması idi. Təsadüfi deyil ki, xalq təfəkküründə xəyanət əlaməti kimi rəmzləşdirilən buynuz məfhumu qəhrəmanın işgüzar səfərinin gerçəkləşəcəyi qəsəbənin adı kimi təqdim olunur. Buradakı xəyanət isə saf sevgiyə, ülvi hisslərə, mənəvi dəyərlərə olan xəyanət kimi qiymətləndirilə bilər. Hekayənin qəhrəmanı qatarda gedərkən təsadüfən bir xanımla qarşılaşır və qısa zaman ərzində ona aşiq olduğunun fərqinə varır. Lakin daha sonra onun atasının erməni ola biləcəyi ehtimalı qəhrəmanın duyğu və düşüncələrini al-üst edir. Kiçik bir ehtimal obrazın sevdiyi qadına- Veraya olan saf hisslərindən üz döndərməsinə, bütünlükdə isə onu inkar etməsinə səbəb olur. Psixoloji təhlildə qəhrəman hadisələri öz baxış bucağından qiymətləndirir, qınaq obyektinə çevrilməmək, vətən qarşısında xəyanətkar qismində görünməmək üçün şəxsi hisslərini milli hisslərə qurban verməyi üstün tutur. Hekayənin sonunda Veranın atasının erməni olma ehtimalı aradan qalxdığından qəhrəmanın milli iztirablarına son qoyulsa da, psixoloji gərginlik aradan qalxmır, onda özünügünahlandırma, vicdan əzabı hissi baş qaldırır. Yazıçı öz humanist mövqeyini qəhrəmanın qeyri-humanist davranışlarında göstərməklə oxuculara çatdırmağa çalışır.

Elçin Hüseynbəylinin böyük nasir Cəlil Məmmədquluzadə dəsti-xəttini anımsatdığı “Boz eşşəyin məktubları” hekayəsi digər hekayələrdən üslub baxımından seçilir. Yazıçı alleqorik obraz olan sahibi tərəfindən tərk edilmiş eşşək vasitəsilə müharibənin yaratdığı dəhşətli tablo, boşaldılmış, talan edilmiş bir kənd mənzərəsi canlandırır. Hekayədə eşşəyin dilindən kimsəsizliyi incə və kədərli ştixlərlə, dəqiq müşahidə elementlərilə, aydın, sadə bir dillə təqdim edir. “Ümumiyyətlə, qaçqın qəhrəmanın cəbhə xəttini adlayaraq işğal olunmuş torpağına doğru yol alması yazıçının nəsrində rast gəlinən fabuladır. Lakin yazıçının yurd dərdinin heyvanın timsalında inikası orijinal ifadə tərzidir” [4].

Hekayə bir növ Türkiyə ədəbiyyatının dəyərli sənətkarı Əziz Nesinin yaradıcılığındakı “Taxtalı köydən məktublar”ı xadırladır. Hər iki əsərdə eşşək vasitəsilə mühitin təsviri real cizgilərlə verilir. Baxmayaraq ki, eşşək xalq təfəkküründə söyüş, təhqir anlamı yükləyən mənanı ehtiva edən heyvandır, amma hekayədə incə mətləblərdən xəbərdar, gördüklərindən məntiqi nəticə çıxartmağı bacaran təfəkkür sahibi kimi təqdim edilir. Yazıçı “Boz eşşəyin məktubuna cavab”ında isə ötən hekayədə eşşəyin sahibinə ünvanladığı suallara aydınlıq gətirir. Əgər biz birinci hekayədə bir səhər oyanıb sükuta qərq olmuş kəndin, qapı-pəncərəsi açıq qoyularaq qeyb olmuş sakinlərinin nə səbəbə? və hara? getməsi suallarına cavab axtaran eşşəyin nigarançılığını duyuruqsa, ikinci hekayədə sahibinin dilindən ermənilər tərəfindən başlarına gətirilən müsibətlər kədər qarışıq təəssüflə təqdim edilir.

Ümumilikdə deyə bilərik ki, Elçin Hüseynbəylinin Qarabağla bağlı silsilə hekayələrində obrazların mənəvi təlatümləri, ruhi iztirabları psixoloji aspektdən

düzgün qiymətləndirilmiş, gerçəkliyi əks etdirən yaradıcılıq metodu kimi mühüm bir vasitəyə çevrilmişdir.

**İstifadə olunmuş ədəbiyyat siyahısı:**

1. Əliyev Rəhim. Ədəbiyyat nəzəriyyəsi. Bakı, Mütərcim, 2008, 360 s.
2. Hüseynbəyli Elçin. Gözünə gün düşür. Bakı, "Yeni Poliqrafist", 2018, 332 s.
3. İmanov Muxtar. Müasir Azərbaycan nəsrində psixologizm. Bakı, 2021, 168 s.
4. Yigitoğlu Nəzmiyyə. Ədəbiyyatda eşşək alleqoriyası satirik fikrin ifadəsi kimi. Risalə. Elmi araşdırmalar jurnalı. №1, 2019 (16)
5. https://www.azadshusha.com/uncategorized/8676/

**Amanova Heyran Əflatun**

**Elçin Hüseynbəylinin Qarabağ hekayələrində psixologizm**

**Xülasə**

Müstəqillik dövrü Azərbaycan ədəbiyyatında Qarabağ problemini bədii ədəbiyyatda işıqlandıran yazarlardan biri də Elçin Hüseynbəylidir. Məqalədə yazarın "Ağ.Qara", "Gözünə gün düşür" kitablarında toplanan hekayərlərin hər biri təhlilə cəlb edilir. Hekayələrinin əksəriyyətində sonluq novellavari şəkildə yekunlaşır. Oxucu hekayənin məntiqi sonluğunu təfəkkürünə əsasən dəyərləndirib nəticəyə varır. Bu əlbəttə ki, oxucunun diqqətli olub müəllif ideyasını anlamasını şərtləndirir. Yaradılan tiplərin müsbət və ya mənfi keyfiyyətlərinə müəllif öz mövqeyini bildirmir. O, obrazların daxili və ya xarici xüsusiyyətlərinin təsəvvürünü yaradır, lakin kimin haqlı, kimin haqsız olması seçimini oxucunun ixtiyarına buraxır. Hekayələrdə bəşəri, humanist ideyalar üstünlük təşkil edir, müharibə və onun acı nəticələri əsas tənqid hədəfi kimi göstərilir. Eləcə də, məqalədə psixologizm haqqında məlumat verilərək obrazların mənəvi aləmini işıqlandırmaqda onun rolu yüksək qiymətləndirilir.

**Açar sözlər:** hekayə, psixologizm, müharibə, xalq, obraz

**AMANOVA HEYRAN AFLATUN**

**PSYCHOLOGISM IN ELCHIN HUSEYNBEYLI'S KARABAKH STORIES**

**SUMMARY**

Elchin Huseynbeyli was one of the authors who highlighted the Karabakh theme in Azerbaijani literature during its independence. The article analyzes each story from the author's novels "White. Black" ("Ağ. Qara") and "The sun falls in his eyes" ("Gözünə gün düşür"). The majority of his works conclude in the style of a novella. Based on his thoughts, the reader examines the story's logical end and draws a conclusion. This, of course, necessitates that the reader be cautious and comprehend the author's concept. The author does not state his thoughts on the positive or negative characteristics of the created types. It depicts the characters' internal or exterior features, but the reader decides who is right and who is wrong. The stories are characterized by the predominance of humanitarian, humanistic themes and a focus on criticizing war and its harsh aftermath. The essay offers

valuable insights about psychologists and their contribution to highlighting on the spiritual realm of characters.

**Keywords**: story, psychologism, war, people, character

**АМАНОВА ХЕЙРАН АФЛАТУН**

**ПСИХОЛОГИЗМ В КАРАБАХСКИХ РАССКАЗАХ ЭЛЬЧИНА ГУСЕЙНБЕЙЛИ**

**РЕЗЮМЕ**

Эльчин Гусейнбейли является одним из авторов, проливших свет на Карабахскую тему в литературе периода независимости Азербайджана. В статье к анализу привлечен каждый из рассказчиков, собранных в книгах автора «Белое. Черное» (“Ağ.Qara”) и «Солнце падает в глаза» (“Gözünə gün düşür”). Большинство его рассказов имеют финал, похожий на новеллу. Читатель оценивает логический конец рассказа на основе своего мышления и приходит к выводу. Это, конечно, требует от читателя внимательности и понимания идеи автора. Автор не высказывает своей позиции по поводу положительных или отрицательных качеств созданных типов. Он создает образ внутренних или внешних особенностей героев, но оставляет за читателем выбор, кто прав, а кто нет. В рассказах преобладают общечеловеческие, гуманистические идеи, а главным объектом критики показана война и ее горькие последствия. Также в статье приводятся сведения о психологизме и высоко оценивается его роль в освещении духовного мира образов.

**Ключевые слова:** история, психологизм, война, народ, изображение

**Rəyçi: f.f.d., dos. Vəfa Musa qızı Fətullayeva**